Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir



# Şahzadə Çoban Olur

Müəllif: Edward Hughes

İllüstrasiya edən: M. Maillot; Lazarus

Uyğunlaşdıran: E. Frischbutter; Sarah S.

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.


Bir gün Musa Misirlinin
bir İbrani köləni
döydüyünü gördü.


Fironun sarayında şahzadə kimi böyüməsinə və təhsil almasına baxmayaraq, Musa da İbrani idi. O, köləyə kömək etməli idi.

Heç kimin görmədiyindən əmin olmaq üçün ətrafa boylanaraq, Musa kölənin qəddar ağasına hücum etdi.  Döyüşdə Musa Misirlini öldürdü.  Cəld onun cəsədini basdırdı.



Ertəsi gün Musa İbranilərin dalaşdığını gördü.  O, onları dayandırmağa çalışdı. Onlardan biri dedi: “Misirlini öldürdüyün kimi məni də öldürəcəksən?”



Musa qorxdu.  Dünən baş verənləri hamı bilirdi.  Firon da bildi.  Musa qaçmalı oldu.  O, Midyan adlı ölkəyə getdi.



Musa quyunun yanında dincələrkən, Midyan kahininin yeddi qızı atalarının qoyun-keçilərinə su vermək üçün təknələrini su ilə doldururdular.



Digər çobanlar onları kənara itələməyə çalışırdılar. Musa qadınları qorudu və onlara kömək etdi.




Qızların atası Reuel dedi: “Necə oldu ki, tez gəldiniz!” Qızlar izah edəndə, o dedi: “O adamı buraya gətirin”. Musa Yetro adlanan Reuelgildə yaşadı. Sonra Musa Reulun böyük qızı ilə evləndi.


Misirdə Firon öldü. Allahın xalqı olan İbranilər hələ də kölə idilər.
Onlar öz əzabları içində necə də inləyirdilər!

Onlar yardım üçün Allaha necə də səylə dua edirdilər!



Allah onların dualarını eşitdi.



Musa bunu bilmirdi, lakin Allah İbraniləri köləlikdən çıxartmaq üçün ondan istifadə etməyi nəzərində tutmuşdu. Musa Reulun qoyun-keçilərinin çobanı idi.

Ancaq yəqin ki, o, Misirdəki öz qalxı üçün darıxırdı.

Bir gün Musa yaxınlıqda yanan bir kol gördü. Lakin od-alov kolu yandırmırdı. Musa bunu araşdırmağı qərara aldı.



Musa yaxınlaşanda Allah kolun ortasından ona səsləndi. “Musa!” Musa dedi: “Buradayam”. Allah dedi: “Çox yaxın gəlmə”. “Ayaqlarından çarıqlarını çıxart, çünki durduğun yer müqəddəs torpaqdır”.




Allah dedi: “Səni xalqımı Misirdən
çıxartmaq üçün Fironun yanına
göndərirəm”. Lakin
Musa getməyə qorxdu.


Onda Allah Musaya Öz qüdrətli gücünü göstərdi. O, Musanın əsasını ilana çevirdi.

Musa ilanın quyruğundan tutanda o yenidən əsa oldu.  Allah başqa bir əlamət də verdi.



O əmr etdi: “Əlini qoynuna qoy”. Musa elə etdi. Onun əli cüzamdan ağappaq oldu.



O, bunu yenidən edəndə onun əli sağaldı.



Musa hələ də etiraz edirdi. O, Allaha dedi: “Mən yaxşı danışmıram”. Allah qəzəbləndi. O dedi: “Sənin dediyin sözləri danışması üçün Mən qardaşın Harunu istifadə edəcəyəm”.




Musa Yetronun yanına qayıtdı, əşyalarını yığdı və Misirə yola düşdü.

Musanı dağda qarşılamaq üçün Allah Musanın qardaşı Harunu apardı.  Onlar birlikdə bu xəbəri İbrani ağsaqqallarına çatdırdılar.



Musa İbrani ağsaqqallarına əlamətlər göstərəndə onlar bildilər ki, Allah onlara kömək edəcək.  Onlar birlikdə pərəstişlə təzim etdilər.



Musa və Harun cəsarətlə Fironun yanına getdilər. Onlar ona dedilər: “Allah deyir ki, xalqımı burax”.



Firon cavab verdi: “Mən İsraili buraxmayacağam”. O, Allaha itaət etmirdi.



Fironun fikrini dəyişmək üçün Allah Öz qüdrətli gücündən istifadə etməli idi.



# Şahzadə Çoban Olur

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Çıxış 2-5

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

# Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**